UOT 94(479.24)

SAMİR İSMAYILOV
Bakı Dövlət Universitetinin dosenti, t.ü.f.d.
Tarix fakültəsi Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müəllimi
samir.ismayilov@mail.ru

QƏRBİ AZƏRBAYCANDA İBTİDAİ MƏKTƏBLƏRİN TARİXİNDƏN (XIX ƏSRİN II YARISI - XX ƏSRİN ƏVVƏLLƏRİ)

DOI: https://doi.org/10.36719/2708-065X/112/21-24

Bəhs olunan məqalədə Qərbi Azərbaycan torpaqları, bugünkü Ermənistan ərazisində XIX əsrin ikinci yarısı-XX əsrin əvvəllərində açılmış dünyəvi məktəblər şəbəkəsinin bir qolu olan ibtidai məktəblərin tarixi araşdırılmışdır. Aparılan araşdırmalardan aydın olur ki, Azərbaycan əraziləri Qacarlar imperiyası və Rusiya arasında iki hissəyə parçalandıqdan sonra Şimali Azərbaycanda Rusiya imperiyasının müstəmləkə əsarət rejimi hökm sürürdü. Bununla belə, XIX əsrin birinci yarısından başlayaraq Şimali Azərbaycanın maarif mühiti tədricən inkişaf yoluna qədəm qoydu. Azərbaycanda dünyəvi məktəblər şəbəkəsi açıldı. Bununla bağlı olaraq əvvəlcə qanunvericilik bazası qəbul olundu, sonra isə məktəblər açıldı. Bu məktəblərin bir qismi isə Şimali Azərbaycanın İrəvan quberniyasının ərazilərində açılmışdı. Məqalədə bütün bunlar dövrün mənbələri və tarixi ədəbiyyat əsasında araşdırılaraq, obyektiv baxış ortaya qoyulmuşdur.

Açar sözlər: Qərbi Azərbaycan, İrəvan, ibtidai məktəblər, tədris, maarif.

Giriş. XIX əsrin ortalarından etibarən Azərbaycanda maarif sisteminin inkişafında irəliyə doğru mühüm addımlar atıldı. Bu, bir tərəfdən Azərbaycanda dünyəvi təhsil şəbəkəsinin genişlənməsi, digər tərəfdən isə yeni nəsil Azərbaycan ziyalılarının Azərbaycan maarifi, mədəni mühitinə yeni yanaşması, köhnə təhsil sistemindən tədricən uzaqlaşması ilə bağlı idi. Bütün bunlara kömək edən amillər sırasında isə Rusiyanın Şimali Azərbaycanda yeni təhsil məktəblərinin açılması istiqamətində yumşaldıcı siyasəti də var idi. Düzdür, çar Rusiyası bu tipli məktəblərin açılmasında imperiya maraqlarından çıxış edirdi, yetişdirilən gənc nəsillərin Rusiyaya sədaqətli olacağını güman edirdi. Bununla belə, atılan addımlar Şimali Azərbaycan mədəni, maarif mühiti üçün yeni dövr açırdı. Köhnə ehkamlardan uzaqlaşan yeni nəsil gənclər dünyəvi təhsilə yiyələnir, bununla da Avropa və Qərb təhsil mühitinə yaxınlaşmaq imkanı əldə edirdi. Açılan dünyəvi məktəblər sırasında qəza məktəbləri, XIX əsrin ikinci yarısında isə ibtidai təhsil məktəbləri xüsusi rol oynayırdı. Belə ibtidai təhsil müəssisələrinin bir hissəsi bugünkü Ermənistan ərazilərini də əhatə edən Qərbi Azərbaycan torpaqlarında açılmışdı.

İbtidai məktəblər haqqında qanunvericilik bazası. Bu istiqamətdə ilk addım ilk dəfə Qafqaz məktəblərinin 1853-cü il nizamnaməsində təsdiq edildi. Yeni Nizamnaməyə görə, ibtidai məktəblər bir və iki sinifdən ibarət ola bilərdi. Beləliklə, 1854-cü ildə Azərbaycanda ibtidai məktəblərin əsası qoyuldu. Həmin ilin noyabrın 10-da Qubada, 24-də isə Ordubad şəhərində ibtidai məktəblər açıldı [1, s.172; 2; 3, s.15]. Nizamnaməyə görə, tədris ili yanvarın 1-dən hesab olunurdu. Şagirdlərin sayı orta hesabla 30-dan (Quba və Ordubad), 90-a qədər (Lənkəran) idi.

Qərbi Azərbaycan ibtidai məktəbləri. "Qafqaz təqvimi"nin 1860-cı il məlumatlarından aydın olur ki, İrəvan quberniyasında ibtidai məktəblər Yeni-Bəyazid və Ordubad qəzalarında fəaliyyət göstərirdi [6, şöbə 5, s. 38]. Ordubad ibtidai məktəbində rus dili, arifmetika və xəttatlıq üzrə müəllim Pavel Lazareviç Georgiyev, şəriət və tatar dili üzrə müəllim Mirzə-Əli-Məmməd-Bəy Mirzə-Ağa-oğlu Əlixanov idi [6, şöbə 5, s. 38]. Bundan başqa, Ordubad şəhərində "Əylis Ticarət məktəbi" də fəaliyyət göstərirdi. Məktəbdə rus dili, arifmetika, ticarət elmləri üzrə müəllim Nikolay Artemoviç Yevreynov, hüquq, erməni-qriqoryan məzhəbi və erməni dili üzrə müəllim Adam Ter-Nikoqosov, islam ehkamları, fars dili üzrə müəllim Axund Molla Məmməd Axund Molla Abdulla oğlu idi [6, şöbə 5, s. 39].

Araşdırmalar göstərir ki, Qafqaz Tədris Dairəsi bu məktəbləri öz tabeliyinə almaq, onları dövlət vəsaiti və müəllim kadrları ilə təmin etməkdə çətinliklə qarşılaşdığından Qafqaz canişininin sərəncamı ilə həmin məktəblər yerli mülki rəislərin himayə və nəzarətinə verilmişdi. Belə məktəblər bir çox hal-

larda qəza məktəb məzunları tərəfindən açılırdı. Bu baxımdan Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının məzunları, xüsusilə onun Azərbaycan şöbəsinin məzunları İrəvan quberniyasının müxtəlif qəzalarında, o cümlədən Naxçıvanda müəllim kimi pedaqoji fəaliyyətə başlayaraq böyük iş görmüşdü. Bu, quberniyanın bütün qəzalarında dünyəvi təhsilə meyli gücləndirdi [4, cild 2, s.178].

XIX əsrin 70-ci illərindən etibarən İrəvan quberniyasının qəzalarında ibtidai məktəblər açılması genişləndi. Quberniya ərazisində belə məktəblərdən biri 1880-ci ildə Eçmiədzin qəzasında açıldı. Bu, 95 şagirdi olan ikisinifli Aştaraks məktəbi idi [9, s.246].

1881-ci ildə İrəvan qəzasında 41 şagirdi olan ikisinifli Uluxanlı kənd məktəbi açıldı [9, s.246]. Məktəbdə Məşədi İbrahim Hüseyn oğlu Hüseynov, M.S.Zazunov, müsəlman şəriəti üzrə müəllim Molla Axund Hacı Məşədi Hüseynoğlu, müəllim Rəhim Musurza oğlu Həlimov idi [9, s.246]. Bununla bağlı olaraq prof. Əsgər Zeynalov yazır ki, İrəvan qəzasında İrəvan Gimnaziyası və İrəvan Müəllimlər Seminariyası ilə bərabər 1881-ci ildə Uluxanlı məktəbi də fəaliyyətə başladı. Məktəb Allahverdi Hacı Hüseyn oğlunun evində yerləşmişdi. İlk müdir o zaman tanınmış maarifçi Muxin, fənn müəllimi Xanlar bəy Həsənbəyov, şəriət müəllimi Hacı Məşədi Hüseyn oğlu idi. Sonralar Məmməd bəy Lütvəli bəy oğlu Qazıyev, Əbdüləli Bağır oğlu Muxtarov, Hacı Molla Kərim Rzaquliyev və başqaları burada işləmişdi [5, s.7].

Qərbi Azərbaycanda ibtidai məktəblərdən biri də İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında 1882-ci ildə açıldı. Bu, ikisinifli Yengicə kənd məktəbi idi. "Qafqaz təqvimi"nin 1886-cı il məlumatına görə, məktəbin təsisçisi Ələsgər Süleymanov, müəllim Sadıx Xəlilov, hüquq üzrə müəllim isə Molla Zeynal Abdin Qurbanbəyov idi [7, s.84]. 1882-ci ildə Naxçıvan qəzasında Qulubəydizə, 1883-cü ildə İrəvan qəzasında İmanşanlı və Böyük Vedi, 1884-cü ildə Sürməli qəzasında birsinifli Aralıq-Başkənd, Eçmiədzin qəzasında 1883-cü ildə Kurdukulin kənd məktəbi, 1884-cü ildə Novo-Bayazid qəzasında Gözəldərə məktəbi açıldı [9, s.247-248].

"Qafqaz təqvimi"nin 1886-cı il məlumatına görə, İmanşanlı kənd məktəbində A.İvanov, erməni-qriqoryan məzhəbi üzrə M.Ter-Markaryanç, müsəlman şəriəti üzrə Molla Nağı Axundov, Böyük Vedi kənd məktəbində Bəy Əli Abbas Bəy oğlu Əlibəyov, hüquq üzrə Molla Məmməd Molla oğlu, Aralıq-Başkənd məktəbində Məmməd Fərzəli bəy oğlu Zamanbəyov, hüquq üzrə Axund Hacı Molla Əli Əhmədzadə, Qulubəydizə kənd məktəbində M.M.Ter-Tovmasov, Zod məktəbində N.S.Şirakuni, hüquq üzrə Molla Qurban Əhməd oğlu, Qarxunlu kənd məktəbində Əli Əşrəf Qazıyev müəllim kimi çalışırdı [7, s.84].

Qərbi Azərbaycanın ibtidai məktəblərdən biri də 1884-cü ildə açıldı. Bu, İrəvan quberniyasının Novo-Bayazid qəzasında fəaliyyətə başlayan Basarkeçər kənd məktəbi idi. Basarkeçər kənd məktəbində N.S.Şirakuni, erməni-qriqoryan məzhəbi üzrə Ohanes Ter-Xaçaturov, müsəlman şəriəti üzrə Qurban Əhmədoğlu müəllim kimi çalışırdı [9, s.247-248]. Novo-Bayazid qəzasında daha bir məktəb 1885-ci ildə açıldı. Bu, Elenov kənd məktəbi idi [8, s.247-248]. Məlumatlardan göründüyü kimi, İrəvan quberniyasında dünyəvi təhsilin inkişafında mühüm rol oynayan tədris ocaqlarının, ibtidai məktəblərin sayı 1880-1885-ci illərdə çoxaldı, yeni kənd məktəbləri açıldı.

İrəvan quberniyasının kənd məktəbləri sırasına 1885-ci ildə yeniləri də əlavə olundu. 1885-ci ildə Şərur-Dərələyəz qəzasında Başnoraşen ikisinifli kənd məktəbi açıldı. "Qafqaz təqvimi"nin 1886-cı il məlumatlarından aydın olur ki, məktəbin təsisçisi Mirzə Əli Məmməd Xəlilov, hüquq üzrə (erməni-qriqoryan məzhəbi) müəllim Ter-Yeigişe Ter-Terianç, müsəlman şəriəti üzrə müəllim vəzifəsi vakant idi [7, s.84]. "Qafqaz təqvimi"nin 1892-ci il məlumatında isə Başnoraşen kənd məktəbində müsəlman məzhəbi üzrə müəllim Məmməd bəy Qazıyev və müəllim Ələkbər Süleymanovun çalışdığı məlum olur [9, s.246].

Bundan başqa, Aleksandropol qəzasında Bayandur kənd məktəbi açıldı. Burada O.E.Dadiani, pravaslav məzhəbi və hüquq üzrə müəllim Q.İ.Buniyatov, erməni-qriqoryan məzhəbi üzrə Qayk Aram Ter-Mikayelyanç tədris işləri ilə məşğul idi [9, s.246].

İrəvan quberniyasının Sürməli qəzasında da yeni kənd məktəbi açıldı. Bu, Güllücə kənd məktəbi idi [9, s.247].

Qərbi Azərbaycanda ibtidai məktəblər şəbəkəsi XIX əsrin sonlarından etibarən daha da çoxaldı. Bu məktəblər sırasına Naxçıvan qəzasında 1885-ci ildə Cəhri, Nehrəm, 1888-ci ildə Şahtaxtı kənd məktəbləri də daxil oldu [4, cild 2, s.178].

"Qafqaz təqvimi"nin 1886-cı il məlumatlarına görə, Nehrəm və Cəhri məktəbləri ikisinfli idi. Nehrəm kənd məktəbində Ələsgər Şeyx Həsənov, hüquq üzrə Molla Qasım Abdin oğlu idi [7, s.84]. "Qafqaz təqvimi"nin 1889-cu il məlumatına görə, Şahtaxtı kənd məktəbində İsgəndər bəy Əlibəyov, hüquq üzrə Axund Hacı Molla Əli Axund Molla Ələsgər oğlu, Əbdül Qasım Sultanov müəllim kimi çalışırdı [8, s.81].

Naxçıvan qəzasında 1885-ci ildə Yamxana, 1896-cı ildə Vənənd, Bənəniyar, Mahmudoba, Milax, Biləv, Yaycı və Sədərək kəndlərində yeni məktəblər açıldı [4, cild 2, s.178]. 1890-cı ildə İrəvan qəzasında ikisinifli Kəmərli (müəllimlər S.N.Taras-Kravçenko, hüquq üzrə Mirzə Məhəmməd Axundov) və birsinifli Dvin kənd məktəbləri də açıldı [9, s.248].

Qərbi Azərbaycanda ibtidai məktəblərdən biri də XIX əsrin sonlarına doğru Ordubad şəhərində açıldı. Bu, dövrünün məşhur müəllimi və pedaqoqu kimi tanınan, İrəvan qubernatorunun 1892-ci ilə aid hesabatında "çox yaxşı maarifçi" kimi qiymətləndirilən, İranın "Şah Sultan Hüseyn" mədrəsəsində təhsil alıb ərəb və fars dillərini mükəmməl öyrənən Məhəmməd Tağı Sidqinin 1892-ci ildə Ordubad şəhərində açdığı "Əxtər" (Ulduz) məktəbi idi [3, s.285]. Naxçıvan mühitində çox mühüm hadisə kimi qiymətləndirilən bu məktəb təlimin məzmunu və mahiyyətinə görə ruhani məktəblərindən tamamilə fərqlənir, burada yeni təlim və tərbiyə üsulları tətbiq edilirdi. O dövrün rəsmi sənədlərindən birində qeyd olunurdu ki, "ucqar qəzalardan biri olan Ordubadda "Əxtər" adında yeni bir müsəlman məktəbi açılmışdı. Məktəbi Mirzə Tağı adlı bir şəxs təsis etmişdi. Yerli əhali məktəbə o qədər rəğbət bəsləyir ki, onlar öz uşaqlarını dini məktəblərdən çəkindirib "Əxtər"ə qoyurlar [4, cild 2, s.179].

C.Məmmədquluzadə yazırdı ki, Ordubadda M.T.Sidqinin açdığı "Əxtər" məktəbinin şöhrəti çox qısa vaxtda geniş yayıldığından şəhər əhalisi M.T.Sidqini Naxçıvana dəvət edərək Naxçıvanda da belə bir məktəb açmasını xahiş etdilər. 1894-cü ildə Naxçıvanda M.T.Sidqi "Əxtər"in məzmununa uyğun "Məktəbi-tərbiyə"ni açdı [4, cild 2, s.179].

XIX əsrin sonu-XX əsrin əvvəllərində Qərbi Azərbaycanda, İrəvan quberniyasında əvvəlki kənd məktəblərinin bir çoxu indi ikisinfli kənd məktəblərinə çevrilmişdi. İrəvan quberniyasının 1902-ci il "yaddaş kitabçası"nın məlumatlarına görə, İrəvan quberniyasında aşağıdakı kənd məktəbləri var idi. Bunlar İrəvan ikisinifli rus-tatar kişi məktəbi (nəzarətçi Q.Nərimanbəyov, müəllim Q.Şaxtaxtinski, şəriət üzrə M.Qazıyev və M.Qəmərli), İrəvan qəzasında ikisinfli Uluxanlı kənd məktəbi (nəzarətçi Məmməd bəy Lütvəli bəy oğlu Qazıyev, müsəlman şəriəti üzrə Molla Axund Hacı Molla Vəli Məmməd Əli oğlu, Həsən bəy Axund Molla Xəlil oğlu Qazıyev), Eçmiədzin qəzasında Toss məktəbi, Novo-Bayazid qəzasında Elelnov və Dəliqardaş kənd məktəbləri, Naxçıvan qəzasında Cəhri kənd məktəbi (şəriət müəllimi Molla Əli Eynalı oğlu), Nehrəm kənd məktəbi (məktəbin direktoru Cəlil Məmməd oğlu Mirzəyev (Mirzə Cəlil), şəriət üzrə Molla Məmməd Qulu Qazıyev, müəllim Qriqor Tatevosov), Naxçıvan qəzasında Şahtaxtı kənd məktəbi (məktəbin fəxri nəzarətçisi Cəlil Ağa Şahtaxtlı, məktəb nəzarətçisi Qazizadə idi [10, s. şöbə 1, s.84-85].

Nəticə. Beləliklə, aparılan araşdırmalar onu deməyə əsas verir ki, XIX əsr Azərbaycanın maarif sistemində mühüm bir dövrü təşkil edir. Azərbaycanda yad dilin, yad mədəniyyətin hakim olmasına baxmayaraq, çar mütləqiyyəti Şimali Azərbaycanda dünyəvi təhsilin inkişafı üçün müəyyən addımlar atdı. O zamankı Azərbaycanın inzibati-ərazi bölgüsü olan quberniya və qəzalarda dünyəvi məktəblər açıldı. Belə məktəblər şəbəkəsinin bir hissəsi də Qərbi Azərbaycan torpaqlarında fəaliyyətə başladı. İrəvan quberniyasının müxtəlif qəzalarında əvvəlcə qəza məktəbləri, XIX əsrin 2-ci yarısından isə ibtidai məktəblər açıldı. Bu məktəblərin təsisçiləri dövlətin verdiyi maliyyə vəsaiti ilə yanaşı, öz əmlaklarını da məktəblərin yaşaması, fəaliyyəti üçün əsirgəmirdi. Bütün bunlar Şimali Azərbaycanda, o cümlədən onun tarixi ərazilərinin bir hissəsi olan İrəvan quberniyasında irəliyə doğru bir dönüş idi.

ƏDƏBİYYAT

1. Əmrahov Z. İrəvan quberniyasının tarixi. 1850-1917-ci illər. Bakı: Nurlar, 2022.
2. Amrahov Z. The consequences of forced deportatıons: an archıval analysıs of the Azerbaıjanı populatıon's dısplacement from the Armenıan SSR (1948–1955, 1988–1991) // https://lex-localis.org/index.php/LexLocalis/article/view/163 [29.10.2025].
3. Əhmədov H. XIX əsr Azərbaycan məktəbi. Bakı: Maarif, 1985.
4. Naxçıvan tarixi. 3 cilddə, 2-ci cild. Naxçıvan: Əcəmi, 2014.

5. Zeynalov Ə. Unudulmaz Uluxanlı məktəbi // Respublika, 2013, 31 may, s. 7.
6. Кавказский Календарь на 1861 год. Тифлис, 1860.
7. Кавказский Календарь на 1887 год. Тифлис, 1886.
8. Кавказский Календарь на 1890 год. Тифлис, 1889.
9. Кавказский Календарь на 1893 год. Тифлис, 1892.
10. Памятная книжка Эриванскя Губерния на 1902 г. Под. Ред. А.И.Марченко. Эривань: Типография Р.К.Эделсон, 1902.

САМИР ИСМАИЛОВ
доктор философских наук, доцент Бакинского государственного университета, преподаватель кафедры источниковедения, историографии и методологии Исторического факультета

ИЗ ИСТОРИИ НАЧАЛЬНЫХ ШКОЛ ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА (ВТОРАЯ ПОЛОВИНА XIX – НАЧАЛО XX ВЕКА)

В статье рассматривается история начальных школ – ответвления сети светских школ, открывавшихся на землях Западного Азербайджана (территория современной Армении) во второй половине XIX – начале XX века. Исследование показывает, что после раздела территории Азербайджана на две части между Каджарской империей и Россией в Северном Азербайджане господствовал колониально-рабовладельческий режим Российской империи. Однако, начиная с первой половины XIX века, образовательная среда Северного Азербайджана постепенно начала развиваться. В Азербайджане была открыта сеть светских школ. В связи с этим сначала была принята законодательная база, а затем открывались школы. Некоторые из этих школ были открыты на территории Иреванской губернии Северного Азербайджана. В статье всё это рассматривается на основе источников и исторической литературы того периода и даёт объективную картину.

Ключевые слова: Западный Азербайджан, Иреван, начальные школы, образование, просвещение.

SAMIR ISMAYILOV
PhD, Associate Professor of Baku State University, Lecturer of the Department of Source Studies, Historiography and Methodology, Faculty of History

FROM THE HISTORY OF PRIMARY SCHOOLS IN WESTERN AZERBAIJAN (SECOND HALF OF THE 19TH CENTURY-EARLY 20TH CENTURY)

This article examines the history of primary schools-a branch of the secular school network that opened in Western Azerbaijan (present-day Armenia) in the second half of the 19th and early 20th centuries. The study shows that after the division of Azerbaijan between the Qajar Empire and Russia, Northern Azerbaijan was dominated by the colonial-slave regime of the Russian Empire. However, beginning in the first half of the 19th century, the educational environment in Northern Azerbaijan gradually began to develop. A network of secular schools was established in Azerbaijan. In this regard, a legislative framework was first adopted, and then schools were opened. Some of these schools were opened in the Erivan Governorate of Northern Azerbaijan. This article examines all of this based on sources and historical literature of the period and provides an objective picture.

Keywords: Western Azerbaijan, Erivan, primary schools, education, enlightenment.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 29 oktyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 29 yanvar 2026-cı il.
Rəyçilər: t.e.d. Anar İsgəndərov, t.e.d. İbrahim Zeynalov.